

# Professor Mahirə Hüseynova

***ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, AYB-nin üzvü, Əməkdar müəllim, Prezident təqaüdçüsü, Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Müşahidə Şurasının üzvü, Azərbaycan Respublikası AAK-ın filologiya və pedaqogika elmləri üzrə ekspert şurasının sədri, filologiya elmləri doktoru, professor***

Mahirə Hüseynova 1960-cı il noyabr ayının 4-də Naxçıvan Muxtar Respublikasının Naxçıvan rayonu (indiki Babək rayonu) Sust kəndində anadan olmuşdur. 1968-ci ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan rayonu (indiki Babək rayonu) Xalxal kənd səkkizillik məktəbinin birinci sinfinə daxil olmuş, yaşayış yerini dəyişməklə əlaqədar olaraq, 1978-ci ildə Abşeron rayonu Mehdi Hüseynzadə adına Novxanı qəsəbə 1 saylı orta məktəbi bitirmişdir.

1980-ci ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (ADPU-nun) filologiya fakültəsinə qəbul olmuşdur. Təhsil aldığı illərdə öz fəallığı ilə seçilmiş, fakültədə keçirilən bütün tədbirlərdə iştirak etmiş, tələbə və müəllim heyətinin dərin rəğbətini qazanmışdır. 1984-cü ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin ildən də təyinatla əvvəlcə Abşeron rayonu Mehdiabad qəsəbə 1 saylı orta

məktəbdə, sonra isə Bakı şəhəri Nərimanov rayonu G.Əsgərova adına 43 saylı MLK-da ixtisası üzrə işləmişdir. Bu illərdə Təhsil Nazirliyi tərəfindən "Respublikanın qabaqcıl təhsil işçisi" adına layiq görülmüş, qızıl döş nişanı ilə təltif edilmişdir. 2003-cü ildə isə "İlin nümunəvi müəllimi" Respublika müsabiqəsinin qalibi olmuş, I dərəcəli diplom almışdır. 2004-cü ildə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı, 2007-ci ildə "Qızıl qələm" media mükafatı laureatı, "İlin Alimi" media mükafatı laureatı və s. mükafatlara layiq görülmüşdür.

2008-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Müasir Azərbaycan dili kaferasının müəllimi kimi fəaliyyətə başlamış, 2014-cü ildən baş müəllim, 2015-ci ildən həm Müasir Azərbaycan dili kafedrasının dosenti , həm də həmin ildən kafedra müdiri vəzifəsinə təyin olunmuşdur. 2018-ci ildən Müasir Azərbaycan dili kafedrasının professoru olmuşdur. Həmin ilin dekabr ayının 10-dan Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin dekanı vəzifəsinə seçilmişdir.

2021-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru vəzifəsində çalışır.

ADPU-nun müəllim və tələbələrinin Orduya dəstək kampaniyasında fəal iştirakını təşkil etdiyinə görə 2020-ci il 4 noyabr Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi tərəfindən "Milli Ordu-100" medalı ilə təltif edilmişdir. Eləcə də Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Fəxri Üzvü seçilmişdir.

2021-ci ildə "Səməd Behrəngi" beynəlxalq mükafatını almış və həmin ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür.

M.Hüseynova Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin (EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)) qalibi olmuşdur. "Türk dilləri dialektlərinin qarşılıqlı inteqrasiyası" adlı layihə çərçivəsində Respublika daxilində və xaricdə xeyli məqalələr yazmış və dərc etdirmişdir. Professor Mahirə Hüseynova "Linqvistika problemləri" beynəlxalq elmi jurnalının təsisçisi və baş redaktoru, "Mahmud Kaşğarlı" beynəlxalq elmi jurnallarının həmtəsisçisi, "Azərbaycan dili və ədəbiyyatın tədrisi", "Türk filologiyası", "Euroasia Journal of Social Sciences & Humanities" jurnallarının redaksiya heyətinin üzvü, "Elmi iş" jurnalının redaktorudur.

Professor Mahirə Hüseynova 2021-ci ildən Ali Attestasiya Komissiyasının filologiya və pedaqogika elmləri üzrə ekspert şurasının sədridir.

Elmi araşdırmaları ilə diqqəti cəlb edən Mahirə Hüseynova 2001-ci ildən Qərbi Azərbaycanın Dərələyəz mahalı üzrə tədqiqatlar aparmışdır. Həmin mahalın aşıq və el şairlərinin yaradıcılığı, onomastik vahidləri haqqında xeyli material toplamış,

2012-ci ildə başladığı işi uğurla davam etdirərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Bu məqamda o, həm görkəmli dilçi-alim Həsən Mirzəyevin filoloji görüşlərini, həm də Dərələyəzə aid olan dil faktlarını, poetik nümunələrini araşdırmışdır. Elə bunların nəticəsidir ki, o, 2017-ci ildə "XIX-XX əsr Azərbaycan aşıq və el şairlərinin yaradıcılığının dil, üslub xüsusiyyətləri" adlı dissertasiyasını yazmış və onu uğurla müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsini qazanmışdır. Alimin araşdırmalarının nəticəsi olaraq xeyli sayda kitabı işıq üzü görmüşdür.

Azərbaycan dilçiliyinin müxtəlif sahələri üzrə araşdırmaları ilə seçilən Mahirə Hüseynova 28 elmi kitabın, o cümlədən monoqrafiya, dərs vəsaiti, metodik vəsait, 5 proqramın və 16 bədii (şeirlər) kitabın müəllifidir. Alimin Respublikanın nüfuzlu jurnallarında (o cümlədən xarici mətbuatda), qəzet və digər mətbu orqanlarda 400-ə qədər elmi məqaləsi çap olunmuşdur. Onun 100-ə qədər kitabı işıq üzü görmüşdür. Professor Mahirə Hüseynovanın müəllifi olduğu kitabların siyahısı:

*Missiya (Ulu öndər Heydər Əliyevə həsr olunur). Bakı: ADPU-nun nəşri, 2020;*

*Ulu öndərimizə məhəbbət ruhunda. Bakı: "Təknur" nəşriyyatı, 2008;*

*Ulu öndərimizin natiqlik məharəti. Bakı: "Avropa" nəşriyyatı, 2009;*

*Ulu öndərimizin natiqlik məharəti xalqımızın ən böyük sərvətidir. Bakı: "Avropa" nəşriyyatı, 2011;*

*Alim təfəkkürünün itiliyi (monoqrafiya). Bakı: "Vətən" nəşriyyatı, 2013;*

*Dərdi dərin Həsən Mirzə. Bakı: "Vətən" nəşriyyatı, 2013;*

*Azərbaycan poeziyasında "Dağ" obrazı. Bakı: "Vətən" nəşriyyatı, 2013;*

*Ədəbiyyatşünaslığa xidmət əzmi ilə (Çapar Kazımlı ilə birgə). Bakı: Elm və təhsil" nəşriyyatı, 2013;*

*Həsən Mirzəyev və Azərbaycan dilində fel. (seçmə fənn), (proqram). Bakı: ADPU-nun mətbəəsi, 2014;*

*Həsən Mirzəyəvin yaradıcılığnda filologiya məsələləri (dərs vəsaiti). Bakı: "Vətən" nəşriyyatı, 2014;*

*Muxtar Hüseynzadə və Azərbaycan dilinin morfologiyası. (seçmə fənn), (proqram). Bakı: ADPU-nun mətbəəsi, 2014;*

*Əbdüləzəl Dəmirçizadə və Azərbaycan dilinin fonetikası. (seçmə fənn), (proqram). Bakı: ADPU-nun mətbəəsi, 2014;*

*Azərbaycan Dövlət Pedaqoji Universitetində "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə yenidənhazırlanma təhsili üçün. (proqram). Bakı: ADPU-nun mətbəəsi, 2016;*

*Aşıq və el şairlərinin fonopoetikası (monoqrafiya). Bakı: ADPU-nun nəşriyyatı,*

*2015;*

*XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin yaradıcılığında onomastik vahidlərin linqvopoetikası (Dərələyəz mahalı üzrə). ADPU-nun nəşriyyatı, 2015;*

*Müasir Azərbaycan dili: Aşıq və el şairlərinin yaradıcılığında dialektizmlərin öyrədilməsinə dair (Dərələyəz mahalı üzrə), (metodik vəsait). Bakı: "Vətən" nəşriyyatı, 2015;*

*Aşıq və el şairlərinin leksikası (monoqrafiya). Bakı: ADMİU, 2016; Aşıq və el şairlərinin üslubi frazeologiyası (monoqrafiya). Bakı: Afpoliqraf mətbəəsi, 2017;*

*Aşıq və el şairlərinin üslubi sintaksisi (monoqrafiya). Bakı: Afpoliqraf mətbəəsi, 2017;*

*Müasir Azərbaycan dili: Punktuasiya məsələləri (dərs vəsaiti).Bakı: Afpoliqraf mətbəəsi, 2017;*

*Professor Mahirə Hüseynova tələbəlalik illərində bədii yaradıcılığa başlamış, şeirləri "Gənc müəllim" qəzetində çap olunmuşdur:*

*Mənim anam. (şeirlər) Bakı: "Vətən" nəşriyyatı, 2006;*

*Su at dalımca, ana. (şeirlər) Bakı: "Vətən" nəşriyyatı, 2006;*

*Ana sevgisindən doğan nəğmələr. Bakı: "Avropa" nəşriyyatı, 2008;*

*Yaşadacaq anam məni. (şeirlər). Bakı: "Qismət" nəşriyyatı, 2009;*

*Ana kəndim Xalxalım. Bakı: "Avropa" nəşriyyatı, 2010;*

*Ömrün çıraqdır sənin. Bakı: "Avropa" nəşriyyatı, 2010;*

*Sözün hikməti. (şeirlər) Bakı: "Vətən" nəşriyyatı, 2012;*

*Analı dünyam. (şeirlər) Bakı: "Vətən" nəşriyyatı, 2015;*

*Haqqa çağıran səs. (şeirlər) Bakı: "Vətən" nəşriyyatı, 2015;*

*Bayatılar. Bakı: "Apostroff" nəşriyyatı, 2015;*

*Bayatılar və üç şeir. Bakı: "Apostroff" nəşriyyatı, 2015;*

*Ruhuna beşiksə, tanı, Vətəndir. (şeirlər) Bakı: Afpoliqraf mətbəəsi, 2017;*

*Onun daş nağılı. (şeirlər) Bakı: ADPU-nun nəşri, 2019;*

*Yanından keçmə dağların (bayatılar). Bakı: ADPU-nun nəşri, 2020;*

*"Ümumtürk dillərinin qarşılıqlı inteqrasiyası", Lövbər adam, Şeirlər kitabı,*

*Aşıq və el şairlərinin üslubi morfologiyası. (monoqrafiya). Bakı: Afpoliqraf mətbəəsi, 2017;*

*Aşıq və el şairlərinin poetikası. Bakı: 2017;*

*Üslubi morfologiya. ADPU-nun mətbəəsi. Bakı: 2018;*

*Müasir Azərbaycan dili: Aşıq və el şairlərinin yaradıcılığının dil, üslub xüsusiyyətləri. (Dərələyəz mahalı üzrə) Bakı: 2018;*

*XIX-XX əsrlər Azərbaycan aşıq və el şairlərinin əsərlərinin linqvistik təhlili (dərs vəsaiti). Bakı: "Avropa" nəşriyyatı, 2018;*

*Azərbaycan dilinin yemək və içki adlarının tarixi-etimoloji lüğəti. Bakı: ADPU-nun nəşriyyatı, 2018;*

*Dilin elmi və estetik problemləri. Bakı: ADPU-nun nəşriyyatı, 2019;*

*Azərbaycan dilçiliyində ümumtürk dillərinin dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqi məsələləri. Bakı: ADPU-nun nəşriyyatı, 2019;*

*Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası. Bakı: ADPU-nun nəşriyyatı, 2020 (türk dilində), Türk Ocakları Derneği Bursa Şubesi. – Bursa, 2022,*

*Biblioqrafiya, Bakı: ADPU-nun nəşriyyatı, 2022,*

*Sözün və əməlin yaratdığı tarix, Bakı: ADPU-nun nəşriyyatı, 2022,*

*Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsərinin qrammatik xüsusiyyətləri., Bakı: ADPU-nun nəşriyyatı, 2022,*

*Bir təfəkkür tərzinə fərqli baxışlar. Mahirə Hüseynova: Alim və şair ömrünün detalları, Bakı: ADPU-nun nəşriyyatı, 2022,*

*Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili, Bakı: ADPU-nun nəşriyyatı, 2023, Baxış bucağı: Heydər Əliyev və starteji azərbaycançılıq, Bakı: ADPU-nun nəşriyyatı, 2023,*

*XX əsrdə Dərələyəzdə Urbisid və Etnosid Aktları, Bakı 2024.*

Respublika mətbuatında onun kitabları haqqında 300-dən çox məqalə dərc olunmuşdur.

15-16 dekabr 2023-cü il tarixində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Azərbaycan Müəllimlərinin XVI Qurultayında iştirak etmişdir.

M.Hüseynova ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun "Elm-Təhsil İnteqrasiyası" məqsədli qrant müsabiqəsinin (Qrant № AEF – MCG -2022-1 (42)-12/12/5-M-12) "Pedaqoji kadr hazırlığında Avropa təhsil siteminin araşdırılması və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin Azərbaycanda pedaqojiyönümlü universitet və kolleclərin filoloji fakültələrində tətbiqi" adlı layihənin qalibi olmuşdur.

Mahirə xanım Hüseynovanın elmi yaradıcılığının mühüm bir hissəsini türkologiya sahəsinə dair apardığı tədqiqat işləri təşkil edir. Bu tədqiqatlarda ümumtürk dillərinin qarşılıqlı inteqrasiyası, ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli tədqiqi, Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsərinin qrammatik xüsusiyyətləri monoqrafik şəkildə araşdırılmışdır.

M.Hüseynovanın bir alim kimi ictimai fəaliyyəti də onun Vətəndaşlıq mövqeyini, türkçülük ideyalarını, mövqeyini əks etdirir. M.Hüseynovanın qədim oğuz yurdu Qərbi Azərbaycanla bağlı Dövlət başçısının çağırışı ilə bağlı apardığı

fəaliyyəti də diqqəti cəlb edir. Onun təşəbbüsü ilə ADPU-nun nəzdində Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi fəaliyyət göstərir. Mərkəzin "İz" jurnalı və "Yurdun səsi" qəzetinin təsisçisi və baş redaktoru prof. M.Hüseynovadır. Özbəkistan, Türkiyə və digər türk respublikalarına səfərləri, bir çox universitetlərin fəxri professoru Türk Respublikaları Turan Akademiyasının Türk Dünyası Alim Qadınlar Şurasının sədri, Türk akademiyalarının akademiki seçilmiş, başqa fəxri adlarla təltif olunmuşdur.

30 yanvar 2024-cü il tarixində Naxçıvan Dövlət Universitetinin fəxri professoru seçilmişdir.

2 fevral 2024 cü il tarixində Özbəkistan Respublikasının Kokand Universiteti tərəfindən fəxri diplomla təltif olunmuşdur.

7 fevral 2024 cü il növbədənkənar prezident seçkilərinin təbliğat və təşviqat qrupunun ən fəal üzvü olmuşdur.

2024-cü il mart ayında Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu yanında Ekspertlər Şurasının üzvü seçilmişdir.

16 aprel 2024 cü il tarixində Dünya Söz Akademiyasının Rəyasət Heyətinin fəxri akademiki seçilmişdir.

26 may 2024 cü il tarixində Maxpirat adına Turan Elmlər Akademiyasının fəxri akademiki seçilmiş və döş nişanı ilə təltif olunmuşdur.

31 avqust 2024-cü il tarixində Beynəlxalq Elmlər Akademiyasının fəxri akademiki seçilmiş və döş nişanı ilə təltif olunmuşdur.

2024-cü ildə Mamun Universitetinin fəxri professoru seçilmişdir.

2024-cü ildə ADPU-nun Qərbi Azərbaycan Araşdırmalar Mərkəzinin mətbu orqanı olan "Yurdun səsi" qəzetinin təsisçisi və baş redaktoru olmuşdur.

30 sentyabr 2024-cü il tarixində Özbəkistan Respublikası Daşkənd İqtisadiyyat və Pedaqoji Universitetinin fəxri professoru adına layiq görülmüşdür.

2024-cü ilin sentyabr ayından Daşkənd İqtisadiyyat və Pedaqogika Universitetinin elmi metodik jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.

27 sentyabr 2024-cü il tarixində Özbəkistan Respublikasının Cizzax Dövlət Pedaqoji Universitetinin fəxri professoru adına layiq görülmüşdür.

2025-ci ildə Azərbaycan Respublikası Milli Məclisi yanında Toponimiya Komissiyasının tərkibinə üzv seçilmişdir.

***Redaksiya heyəti***